# Qarabağdan “Made in Qarabağ”a

Zəngilan rayonunda “Dost Aqropark”ın təməli keçən il oktyabrın 26-da qoyulub. Ötən müddətdə uzun bir zaman ərzində erməni vandalları tərəfindən tar-mar olunan, daşı daş üstdə saxlanılmayan Qarabağ və Şərqi Zəngəzurun hər yerində, eləcə də adıçəkilən bu aqrar-sənaye kompleksinin inşasında böyük işlər görülüb, geniş həcmli tikinti-quruculuq layihələri gerçəkləşdirilib. Azərbaycan qardaş Türkiyə ilə birlikdə bu torpaqları yenidən canlandırmağa, necə deyərlər, ayağa qaldırmağa, viran qalmış əraziləri cənnətə çevirməyə başlayıb.

Səhifə ⇨ 4

Xalq qəzeti .- 2022.- 23 oktyabr.- S.1;4.

# Qarabağdan "Made in Qarabağ"a




(əvvəli 1-ci səhifədə)

O vaxt, yeni təməlqoyma mərasimində türk və azərbaycanlı sərmayədarlar tərəfindən "Dost Aqropark" layihəsinə əsasən, əvvəlcə sosial obyektlər və komplekslərin tikintisi nəzərdə tutulmuşdu. Daha sonra isə heyvandarlıq və əkinçilik məhsullarının istehsalına başlanılması qərara alınmışdı. Bütün bunların gerçəkləşdirilməsində əsas məqsəd isə Azərbaycan və Türkiyənin qida təhlükəsizliyinə töhfə vermək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaratmaq idi.

Yeri gəlmişkən, o zaman "Dost Aqropark" layihəsinin həyata keçirilməsi ilə həm də bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatı ödəmək kimi məsələlər qarşıya mühüm vəzifə kimi qoyulmuşdu. İstehsal prosesində "ağıllı" kənd təsərrüfatı texnologiyalarına, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulması isə prioritet istiqamətlər sırasında idi.

Sözügedən aqroparkın layihəsinə xeyir-dua verən Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bu əlamətdar hadisədən bir il sonra yenidən Zəngilan rayonunda görüşərək, adıçəkilən "ağıllı" kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak etdilər. Dövlət başçıları qısa müddətdə görülən işlərlə tanışlıq zamanı Türkiyə–Azərbaycan birliyinin, dostluğunun hər bir sahədə, eləcə də iqtisadi sektorda belə yüksək nəticələrlə diqqət çəkdiyini bildirdilər.

Pezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan kompleksə tanışlıq zamanı bildirdilər ki, layihənin birinci mərhələsində inzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, üzgüçülük hovuzu, xidməti heyətin yaşayışı üçün binalar tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı həyata keçirilib, ötən il əkin aparılan buğda və arpanın biçini başa çatdırılıb.

Dövlətimizin başçısı və Türkiyənin Cümhurbaşqanı tərəfindən "Dost Aqropark"ın bölgəyə gətirdiyi, otlaqlarda bəslənərək yetişdirilən və kəsimi aparılan heyvanlardan alınan ət məhsullarının paketlərinin üzərinə "Made in Qarabağ" etiketlərinin ilk nümunələri vuruldu. Burada, eyni zamanda, kompleksin ikinci və üçüncü mərhələləri üzrə işlərin də sürətlə davam etdiriləcəyi, layihənin nəzərdə tutulan müddətdə başa çatdırılması nəticəsində 6 min hektar ərazidə bitki mənşəli istehsal və texnika sahələrinin yaradılacağı, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələrinin salınacağı bildirildi.

Mərasimdə bütün bunlarla yanaşı, "Dost Aqropark"da Qarabağ və Şərqi Zəngəzur ərazilərinə inteqrasiya olunan ət emalı və qablaşdırma müəssisəsinin qurulacağının, həcmi 100 min ton olan anbarın inşasının da nəzərdə tutulduğu vurğulandı. Həmçinin bu iqtisadi rayonlarda istehsal olunan məhsulların "Made in Qarabağ" brendi ilə dünya bazarına çıxarılması üçün "Aqro Market"in də qurulacağının da prioritet istiqamət kimi önəm daşıdığı qeyd edildi.

Yazının bu məqamında xatırladaq ki, "Dost Aqropark" türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksidir. Üç mərhələdə həyata keçirilməsi planlaşdırılan layihənin son bir il ərzində ilk mərhələsi üzrə görüləcək bütün işlər artıq uğurla başa çatdırılıb.

"Ağıllı" kənd təsərrüfatı texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunacağı "Dost Aqropark" ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Layihə yekunlaşdırıldıqda kompleksdə 500 nəfər işlə təmin olunacaq. Burada ekosistemin yaradılması üçün ümumilikdə 100 milyon dollar dəyərində sərmayə qoyulacaq. Kompleks Azərbaycanın və Türkiyənin ərzaq təhlükəsizliyinə mühüm töhfə verəcək.

**Vaqif BAYRAMOV, "Xalq qəzeti"**